Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Haqq pərvanəsi – Xəlil Rza

**Xəlil Rza Ulutürkün 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Haqq pərvanəsi – Xəlil Rza:** metodik vəsait / tərt.ed. A.Əlieyva; ix red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. -Bakı, 2017.-40s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Firəngiz Küskünəm dərd qəmdir yüküm,
Fil çəkməz bu dərdi, de necə çəkim.
Kəbəm, qibləgahım, ey Ulutürküm,
Kəsilib gümanım, ümidim mənim.
*Firəngiz xanım Ulutürk*

Hər bir xalqı tarixdə yaşadan onun ləyaqətli övladlarıdır. Azərbaycan xalqının Nizami, Nəsimi, Cavanşir, Xətai, Vaqif, Sabir, Vurğun, Süleyman, Cavid, Cavad, Rəsul kimi sənətkar oğulları, Məhsəti, Natəvan, Nigar, Mirvarid, Billuri kimi sənətkar qızları öz səltənətləri ilə xalqımızın başını ucaltmış, tariximizi salnamələşdirmişlər. XX əsrin yetirdiyi şəxsiyyətlərdən biri də canlı şəhidimiz, böyük şair, ustad Xəlil Rza Ulutürkdür. Vətəndaşlıq Xəlil Rza poeziyasının bütün hüceyrəsində, ətində-bətnindədir. Xəlil Rza Ulutürkün ruhu Azərbaycan xalqının öz ruhudur. Ona görə də Xəlil Rza ölməzdir. Bir insan kimi, bir mücahid kimi, vətəndaş kimi Xəlil Rza Ulutürk kamildir, səmimidir, bütöv və sədaqətlidir. Xəlil Rza Ulutürk kimi şəxsiyyətlər bəşər dühasının yetişdirdiyi o kəslərdəndir ki, o təkcə mənsub olduqları xalqa yox, dünyaya məxsusdurlar. Onlar yaşadıqları dövrdə Günəş kimi hamıya işıq saçır, hamını təmənnasız şəkildə öz nuruna bələyir. Xəlil Rzanın qeyrət simvoluna çəkilmiş adı, işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır. Eşq və ehtiram olsun böyük insan, dahi şəxsiyyət Xəlil Rza Ulutürkə. Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ölməz xalq şairimiz Xəlil Rza Ulutürkün bu il 85 illik yubileyi tamam olur. Bu münasibətlə hazırladığımız bu vəsaiti yazmağı özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ədibin həyat və yaradıcılığından, II hissə isə tədbirlər planından ibarətdir.

## Həyat və yaradıcılığı

Xəlil Rza Ulutürk 1932-ci il oktyabr ayının 21-də Azərbaycanın Salyan rayonunun Pirəbbə kəndində anadan olmuşdur. Gəlişi ilə ailəyə sevinc bəxş etmiş, körpəyə babası Xəlil öz adını vermişdir. Körpə qayğı və nəvazişlə böyüdü. Yeddi yaşı olanda onu məktəbə göndərdilər. O, 2 saylı şəhər orta məktəbində təhsil almışdır və təhsil aldığı ilk illərdən Xəlil öz çalışqanlığı, fərasəti və davranışı ilə müəllimlərinin rəğbətini qazanmışdır. O, Salyan şəhər kitabxanasının ədəbiyyat dərnəyinin üzvü olmuşdur. İlk mətbu şeiri "Kitab" 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində işıq üzü görmüşdür. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olub. Universitetdə ədəbiyyatşünas alim Cəfər Xəndanın, sonralar şair Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbi dərnəkdə, Azərbaycan Yazıçılar İttifaqında xalq yazıçısı Mirzə İbrahimovun başçılığı ilə keçirilən "Gənclər günü" məşğələlərində fəal iştirak etmişdir.

1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirən Xəlil Rza əmək fəaliyyətinə "Azərbaycan qadını" jurnalı redaksiyasında başlamışdır. O, burada çalışdığı iki ildə (1955-1957) dövri mətbuatda çap etdirdiyi məqalə və şeirlərlə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. 1954-cü ildə Xəlil Rza SSRİ Yazıçılar İttifaqının üzvü seçilir. Onun ilk şeirlər toplusu – "Bahar gəlir" (1957) kitabı da nəşr olunur. 1957-ci ilin avqust ayında Azərbaycan Yazıçılar İttifaqı Xəlil Rzanı Moskvaya, M.Qorki adına Dünya Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik Ali Ədəbiyyat kurslarına göndərməsi də gənc şairin gələcəyinə inamla bağlı idi. Xəlil Rza İnstitutda rus ədəbiyyatının görkəmli sənətkarı Pavel Antokolskinin rəhbərlik etdiyi bölmədə poeziyanın nəzəri əsaslarını öyrənməklə yanaşı, dünya xalqlarının mədəni irsi ilə yaxından tanış olmuşdur. Moskvada

təhsil illərində görkəmli rus şairi Samuil Marşakın evində və Yasnaya Polyanada dahi Lev Tolstoyun xatirə muzeyində olması, Leninqrada Ermitaj xəzinəsinə kollektiv səfəri, Nazim Hikmət və Mixail Şoloxovla görüşləri gənc şairin xatirəsində dərin izlər buraxmışdır.

1959-cu ildə Xəlil Rza Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. O, 1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı" (1945-1950) mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Onu institutda müəllim kimi saxlamışlar. Tələbə auditoriyasına müəllim kimi daxil olduğu gündən Xəlil Rza dərs proqramı çərçivəsi ilə məhdudlaşmamış, vətənpərvərlik ruhlu mühazirələrində qədim milli bəşəri dəyərlərimizdən və doğma dilimizdən ürək yanğısı ilə söhbət açmışdır. Xəlil Rza Azərbaycan dilinin saflığı, əcnəbi dilin təsirinə məruz qalmaması üçün özünəməxsus mübarizə yolu da seçmişdi. Harada olursa-olsun doğma dilində təmiz danışmayan müsahibindən eşitdiyi hər yabançı kəlmə üçün 5 qəpik cərimə tələb edər, "danışığından məmnun qaldığı soydaşlarını bir manat məbləğində mükafatlandırardı". Beləliklə, o, müasirlərinin diqqətini ana dilinin saflığını qorumağa cəlb etməyə çalışardı.

1984-cü ildə şairin "Ömürdən uzun gecələr" adlı kitabı və SSRİ xalqlarının dillərindən tərcümə edilmiş poetik əsərlərdən ibarət "Qardaşlıq çələngi" toplusu ictimaiyyət tərəfindən Azərbaycan SSRİ Dövlət mükafatına təqdim olunsa da, hakim dairələrin etinasızlığı ilə qarşılandı. Bu soyuq münasibət onu sarsıtmadı. Şairin ən böyük vəzifəsini yazıb yaratmaqda görən Xəlil Rza yorulmadan var qüvvəsi ilə çalışır; yeni şeirləri, elmi araşdırmaları ilə təsəlli tapır. 1985-ci ildə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin

aktual problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1986-cı ildə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə ona əməkdar incəsənət xadimi fəxri adı verilir.

Görkəmli şəxsiyyət, vətən mücahidi Xəlil Rza Ulutürkün anadan olmasının 85 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, biblioqrafik icmal, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə və s. keçirilə bilər. Xəlil Rza yaradıcılığını gənc nəslə, oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Haqq pərvanəsi – Xəlil Rza Ulutürk”, “Xəlil zirvəsi”, “Şairliyindən də ucada dayanan nəhəng vətəndaş”, “Ədəbiyyatdan əbədiyyətə gedən yol”, “Silahı söz və sevgi olan insan”, “Aərbaycan – Xəlil Rza”, “Azadlıq mücahidi – Xəlil Rza”, “Poeziyamızda İstiqlal marşı çalan şair”, “Böyüklüyün sirri”, “Milli poeziyamızın qranit sütunu”, “Türk dastanın qəhrəmanı”, “Xalqı azadlığa çağıran şair”, “Türk dünyasının böyük oğlu – Ulutürk”, “Ulutürk ömrünün ulu möhürü”, “Silahı söz və sevgi olan insan”, “Millətimizin siyasi dühası”, “Sözünün arxasında özü duran sənətkar”, “İstiqlal şairi – Ulutürk”, “Açın ürəyimi, həkimlər, açın”, “Zindanları işqlandıran şair”, “Milli İstiqlal mücahidi”, “Xəlil Rza Ulutürkün ictimai-siyasi lirikası”, “Turan dünyasının böyük şairi”, “Məğrur, dönməzlik təcəssümü, nur amallı, azadlıq mübarizi və nəğməkarı, xalqımızın şanlı oğlu və şairi”, “Xalqın qüdrətli oğlu və əziz sənətkarı – unudulmaz Xəlil Rza”, “Kədəriylə qol-boyun olan şair”, “Söz sərkərdəsi – Ulutürk” və s.


Xəlil Rza Ulutürk
MƏNİM
TANRIM
GÖZƏLLİKDİR...


Xəlil Rza Ulutürk
DRAMATURGİYADA
ədəbi əlaqələr


XƏLİL RZA ULUTÜRK
MƏQSUD ŞEYXZADƏ
VƏ
«AZƏRBAYCAN
DƏFTƏRİ»


Bəkir
Nəbiyev
İSTİQLAL
ŞAİRİ


XƏLİL RZA ULUTÜRK
TÜRKÜN
DASTANI


Xəlil Rza ULUTÜRK
Seçilmiş
əsərləri


Xəlil Rza Ulutürk
Bir odlu gözləri,
bir də xoş səsi


XALQ ƏMANƏTİ
XƏLİL RZA
ULUTÜRK
Dünənəm!
Bugünəm!
Gələcəyəm mən!
SEÇİLMİŞ ƏSƏRLƏRİ

**Görkəmli şəxslərin Xəlil Rza Ulutürk haqqında söylədikləri fikirlər:**

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə seçilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm... Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır.

**Heydər Əliyev,**
*ümummilli lider*

Sənin bütün damarların şimşəkdi, Xəlil, orda qan odla qarışıq axır. Çax, yatanlar ayılsın, qaranlıq işıqlansın.

**Nəriman Həsənzadə,**
*Əməkdar incəsənət xadimi, şair*

Xəlil Rza müasir ədəbiyyatımızın ən görkəmli nümayəndələrindən biridir. O, böyük poetik bir istedaddır. Xəlil Rza böyük alim, yorulmaz tədqiqatçıdır.

**İsmayıl Şıxlı,**
*Xalq yazıçısı*

Xəlil Rzanı başa düşməyənlər çox idi. Onun cəsarətli vətəndaşlıq şeirlərini dinləməkdən belə qorxanların sayı min-min idi. O, kürsüyə qalxanda durub salonu tərk edirdilər. Xəlilin antisovet, antiimperiya çıxışlarına dəlilik kimi baxanlar, onun səsini kəsməyə çalışan, yüksək kürsülərə yolunu bağlayan, onu kiçiltmək istəyənlər Xəlil Rza istedadının Allah vergisi

olduğunu, şairin Allah hökmü ilə danışdığını dərk edə bilmirdilər.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

Xəlil Rza böyük söz ustasıdır, poeziya quludur. Sənət fədaisi, söz sərkərdəsidir.

**Məmməd Araz,**
*Xalq şairi*

Xəlil Rzanın "Dünyanın Ədəbi xəritəsi" adlı kitabı müqayisəli ədəbiyyatşünaslıq və tənqidi-nəzəri fikrimiz üçün qiymətli mənbədir.

**Əlizadə Əsgərli,**
*filologiya elmləri doktoru, professor*

Xəlil Rza xalqımızın milli vicdanı, namusu və əxlaqıdır. Onun həqiqət carçısı, haqq bağıran səsidir.

**Ramiz Duyğun,**
*şair, publisist*

Sən bizim çox qüdrətli, olduqca cəsur, ürəkli, kürəkli şairimizsən. Əziz Xəlil Rza, səninlə fəxr edirəm.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Xəlil Rza poeziyası... "Hər cür mərəzə, süstlüyə və bədbinliyə meydan oxuyan qüdrətli bir ruhun hayqırışlarıdır. Bu mübarizə dəmir iradə poeziyasıdır.

**Hüseyn Arif,**
*Xalq şairi*

Xəlil Rza Ulutürk günəşi zindandan çıxdı, həyatda ikən Türk dastanına qəhrəman oldu.

**Rəfiq Zəka Xəndan,**
*Əməkdar incəsənət xadimi*

Xəlil Rza kimi oğullar az-az doğulsa da, xalqa bərabər olan bir qüdrətə çevrilir. İnanıram ki, Xəlil Rzanın qəhrəmanlıq poeziyası gələcəkdə bütün ataları Xəlil Rzaya, bütün oğulları qəhrəman Təbrizə çevirəcək.

**Zəlimxan Yaqub,**
*Xalq şairi*

Xəlil Rza bizim zövqümüzün, ruhumuzun peyğəmbəridir.

**Mikayıl Mirzə,**
*Xalq artisti*

Mən Xəlil Rzanın yalnız poeziyasında yox, ümumən varlığında və hər addımında nəsə bir böyüklük görürəm.

**Arif Abdullazadə,**
*filologiya elmləri doktoru*

Xəlil Rza tərcüməçi kimi də böyük xidmətləri olan şairdir. O, dünya ədəbiyyatının ən gözəl şeir örnəklərini yüksək poetik dillə iki cildlik tərcümə kitabı ilə gələcək nəsillərə ərmağan etmişdir.

**Tofiq Bayram,**
*Əməkdar incəsənət xadimi*

Şair və tərcüməçi Xəlil Rzanın ürəyinə dünya yerləşir. Xəlil Rza evinə, Xəlil Rza varlığına dünyanın hər yerindən şüa-şüa xətlər çəkmək olar ki, böyüklüyü aşkar görünsün.

**Bəkir Nəbiyev,**
*Əməkdar elm xadimi*

Ustad Xəlil Rza! Sənin ulu, pak, cəsur şəxsiyyətin və qənirsiz gözəl poeziyan bizim milli sərvətimizdir.

**Ziyəddin Göyüşov,**
*fəlsəfə elmləri doktoru, professor*

Məncə, Xəlil Rzanın hər bir çıxışını lentə yazmalıyıq və qoruyub gələcək nəsillərə milli sərvət kimi çatdırmalıyıq.

**Aida Feyzullayeva,**
*filologiya elmləri doktoru*

Mən Xəlil Rzanın şeirlərini müharibədə aclıq vaxtı verilən çörəyə bənzədirəm.

**Həsən Zeynallı,**
*müharibə veteranı*

Xalq şairinin 85 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri ***"Bir şair köksündə Azərbaycan var..."*** adlı şeir müsabiqəsidir. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını, eləcə də "Seçilmiş əsərləri" ni məktəblilərə təqdim edir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək əvvəlcədən təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər heyəti öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Xəlil Rza Ulutürkün həyat və yaradıcılığından, eləcə də əsərlərindən və müxtəlif adda kitablarından söhbət açır.

*Kitabxanaçı:* Uca zirvələrə çatmaq üçün dağlar silsiləsi keçməlisən, dərə-təpə aşmalısan. Xəlil Rza Ulutürk zirvəsi göylərin yerlərə qovuşduğu üfüq qədər yaxın, həm də uzaqdadır... Bu yaxınlıq, uzaqlığı duymaq, görmək hər adamın işi deyil... Xəlil Rza Ulutürk zirvəsinə gedən yol mübarizələrdən, döyüşlərdən keçir.

Doğransam da
tikə-tikə
rizə-rizə-
Mübarizə!..

Xəlil Rza 30 ildən çox vaxtda poeziyamızın çətin və şərəfli yollarında şeiriyyətin oğlu, sənətin layiqli övladı kimi addımlayıb, bu addımlar onu yeridikcə gücünü, qaynadıqca həvəsini qanadlandırıb.

Kürsülərə sığmayan, cəsur şeirim, ər şeirim
Təpədən dırnağadək silahlı əsgər şeirim!

– Deyəndə bu misraların böyük səmimiyyətinə ürəkdən inanırsan, ona görə ki, X. Rza poeziyası böyük ideallarımızın, danılmaz həqiqətlərimizin müqəddəsliyi keşiyində əsgər kimi dayanmağı bacaran iş görən, həmişə yürüşdə, mübarizədə olan poeziyadır.

Xəlil Rza Ulutürk görkəmli şair, filosof, mütəfəkkir, şəxsiyyət, ədəbiyyatşünas alim olmaqla bərabər, ictimai siyasi xadim, milli istiqlal mücahididir. Onun azadlıq hərəkatı öncüllərindən biri olmasını yalnız Azərbaycana aid olan hadisə hesab etmək olmaz. X.R.Ulutürk mücahidliyi – bəşər azadlıq hərəkatının tərkib hissəsi, dünya bahadırlarına məxsus olan mübarizə yolunun tarixi davamı – gələnəyidir. X.R.Ulutürk xalqımızın azadlığı, milli idealı naminə ayağa qalxmışdı. Zəngin tarixə bələdlik, fərdi mübarizə ruhu, nəslin keçib-gəldiyi yolu onu azadlığa, istiqlala səsləmişdi. O, Azərbaycanın müstəqil dövlətçiliyi naminə ayağa qalxmışdı!

Dəyərli iştirakçılar və qonaqlar, Ulutürk zirvəsi ən uca əzəmətli zirvədir. Saflıqla, ədalətlə ucalan zirvə. Gəlin, biz də bu saflıqdan bəhrələnək Xəlil Rza yaradıcılığının zirvəsinə, iştirakçıların söyləyəcəyi şeirlərlə ucalaq...

*İlk iştirakçı səhnəyə yaxınlaşaraq "Hüseyn Cavidə" adlı şeiri söyləməyə başlayır:*

Qəlbin od, şeirin od!
Ömrün-günün od!
Özün buz məzarda!
Bu necə işdir?
Bəs necə olub ki, o buz dağları
Sənin atəşindən əriməmişdir?!..

*İkinci iştirakçı "Əyilmə!!!" adlı şeiri demək üçün səhnəyə yaxınlaşır.*

Qalsan belə susuz, ac
Yavan çörəyə möhtac,
Boğazına ilan tək
Sarılsa da ehtiyac.
Ehtiyac ürəyini
Köksündən qoparsa da,
Odu, suyu, havanı,
Evindən aparsa da,
Ağız açma namərdə!
Ürəyində dərd, yaşa
Sən İnsansan! Əyilmə!
Yoxsul yaşa, Mərd yaşa!

*Digər iştirakçı "Qorx! Qorxma!" adlı şeiri söyləmək üçün səhnəyə dəvət olunur.*

Mən qorxuyla qorxusuzluq arasında yaşayıram,
Sanki bəbir bəbəyində, şir ağzında yaşayıram.
Nə küləkdən çəkinirəm, nə kələkdən, nə fələkdən,
Azərbaycan çörəyinin dad-duzuna
layiq ola bilməməkdən –
bircə bundan qorxuram mən.
Mən qorxuyla qorxusuzluq arasında yaşayıram,
Könül adlı aslanımı hərdən bir az oxşayıram.
Söyləyirəm: – Çətin gündə, bərk ayaqda batma yasa,
Qorxma, düşmən caynaqlısa...

*Sonuncu iştirakçı "Sual-cavab" adlı şeiri intonasiya ilə deyir:*

– Kimdir ən böyük şair?
– Mənim babam Nizami!
– Ən qəhrəman sənətkar?
– İmadəddin Nəsimi!

– Dünyada ən gözəl səs?
– Xanın, Bülbülün səsi!
– Ən doğma, gözəl ölkə?
– Azərbaycan ölkəsi!

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Xəlil Rzanın yubileyi münasibəti ilə əlaqədar müxtəlif tədbirlər keçirilə bilər. Bu tədbirlərdən biri də yaradıcılığı ilə bağlı məktəblərdə keçirilən ***"Xəlil Rzanın azadlıq səsi"*** adlı oxucularla söhbətdir. Kitabxanaçı şairi oxucular, eləcə də məktəblilər arasında tanıtmaq və Xəlil Rza qələmi ilə tanış etmək üçün məktəbə gəlir. Məktəbin oxu zalına toplanmış müəllim kollektivi və məktəblilərə şair haqqında dəyərli məlumatlar verir.

*Kitabxanaçı:* Biz Türkləriz...Vətənimiz başdan-başa yer kürəsi
Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi...

Azərbaycan ziyalıları zaman-zaman öz yaradıcılıqlarında azərbaycançılıq ideyasına müraciət etmişlər. Bu sahədə mərhum şairimiz Xəlil Rza Ulutürkü xüsusi ilə qeyd etmək vacibdir. Öz idealı uğrunda mübarizə aparan ziyalılar ordusu içərisində Xəlil Rza Ulutürk istiqlal şairləri Məhəmməd Hadi, Əhməd Cavad, Məhəmməd Biriya kimi tarixi önəm kəsb etmişdir. Xəlil Rzanın milli idealında azərbaycançılıq – Azərbaycanın taleyi və ideyaları ilə möhkəm bağlıdır. Sənətkarın poeziyasında Vətənin, xalqın ümumiləşmiş obrazı zəngin mənbələrlə, qaynaqlarla

müşayiət olunmuşdur. Xəlil Rza azadlıq idealı ilə poeziyasına bəşəri məzmun gətirmişdir. O, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, milli demokratik hərəkatımızın mücahidi, Azərbaycan poeziyasında görkəmli ədəbi simadır.

Onun poeziyasının kökü, mayası vətən eşqi torpaq və dünya ilə bağlıdır. Şair yazırdı: "Bizim birinci borcumuz yer kürəsini qorumaqdır. Yer kürəsindəki sonsuz gözəllikləri, Füzulinin və Şeksprin yaratdığı poeziya kəhkəşanlarını, İbn-Sinanı qorumaqdır. Bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən ədəbi işığı qorumaq bizim borcumuzdur… Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik. Yaşasın xalqların azadlıq idealı".

Şairin vəfatından sonra onun ömür-gün yoldaşı, vəfadarı Firəngiz xanım (*Xəlil Rzanın həyat yoldaşı*) XX əsrin axırlarından bu günədək Xəlil Rzanın şeirlərini, gündəliklərini və tərcümələrini sahmana salaraq, Xəlil Rza Ulutürk imzası ilə nəşr etdirməkdədir. O, Xəlil Rzanın yarımçıq işlərini – "işıq üzü görməyən" əsərlərini nəşr etdirməklə onu yaşadır, əbədiyyətə, ölməzliyə qovuşdurur.

Mən bilirəm dünyaya elə bir gün gələcək:
Dağlara səs salacaq yalnız ovçu gülləsi.
Lakin o zaman belə qəlbimdə dillənəcək
Bakıda yerə hopmuş qanların şəlaləsi.

1991-ci ilin mayın 6-da şair "Türk milləti mükafatı laureatı" fəxri adına layiq görülmüşdür. Bir ildən sonra ona Azərbaycan Respublikasının Xalq şairi fəxri adı verilmişdir.

Zirvələrdən üzü bəri
gəlir məğrur Azərbaycan!
gəlir cəsur Azərbaycan!
Nur və billur Azərbaycan!
Dar gözlərin görmədiyi

tamam yeni Azərbaycan!
Varlığımda od yerinə
gəzən qanım Azərbaycan!..

Bu misraları oxuyarkən şairin doğma vətəninə olan böyük, sonsuz məhəbbətini görürük. Vətənini, millətini canından artıq sevən Xəlil Rza Ulutürk 1994-cü il iyunun 22-də vəfat etmiş və fəxri xiyabanda dəfn olunmuşdur. Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə Xalq şairi Xəlil Rza Ulutürk (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif edilmişdir.
*Tədbirin sonunda şagirdlər şairin şeirlərindən parçalar söyləyirlər.*

Xəlil Rza Ulutürkün 85 illik yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də biblioqrafik icmaldır. Biblioqraf şairin ***"Yalnız, yalnız öz köksümdən qüdrət, qüvvət istəyirəm, Bu dünyanı ürəyimcə qurmaq üçün səlahiyyət istəyirəm..."*** adlı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir.
*Biblioqraf:* Vətənçilik, millətin azadlıq duyğuları, xalqı mübarizəyə çağırış, azərbaycançılıq ideyalarının ahəngdar gerçək ifadəsi mərhum Xəlil Rza Ulutürk yaradıcılığında daha çox önəm alan mövzulardandır. Onun şeirləri – hayqırtıları vətənin ən ağrılı günlərində insanlara azadlığı daddıran, milli öznüdərkin fəlsəfi-etik cəhətlərini aydınladan taleyüklü bir missiya əhəmiyyəti daşımışdır.

Azərbaycan türküyəm,
bu soyun şah budağı.
Neçə-neçə eranın
köksümdədir qaynağı.
Ərzin buz laylarını əridən
qüdrət mənəm,
Daş dövrünü yaşayan,
tunc dövrünü yaşayan,

Dəmir dövründə polad
əridən hikmət mənəm.

Bu sətirlər istiqlal şairimizin köksündən qopub gələn hayqırışdır.

Biblioqraf öz çıxışından sonra şairin sanballı ömür yolu haqqında dəyərli məlumatlarla birgə X.Rzanın müxtəlif illərdə nəşr olunmuş kitabları və onların annotasiyası haqqında məlumat verir. Xəlil Rzanın kitablarından təşkil olunan sərgi oxucular tərəfindən maraq və rəğbətlə qarşılanır. Bütün bunlarla yanaşı biblioqraf həm də şairin bir çox ədiblərə həsr etdiyi kitabları ilə də iştirakçıları tanış edir. Belə kitablardan biri Azərbaycan ədəbiyyatının klassiki, mənzum dramaturgiyamızın banisi Hüseyn Cavid haqqında Xəlil Rza Ulutürkün memuarlarından seçmələr əsasında hazırlanan "Mənim tanrım gözəllikdir..." adlı kitabıdır. İkinci kitab Xalq şairi və ictimai-siyasi xadim Səməd Vurğunun anadan olmasının 100 illik yubileyi münasibəti ilə tərtib edilmişdir. "Bir odlu gözləri, bir də xoş səsi" adlı kitabda X.R.Ulutürkün elmi-tarixi memuarlarından seçmələr – S.Vurğun haqqında müxtəlif vaxtlarda yazdığı xatirələr və elmi məqalələr toplanmışdır. Xəlil Rza Ulutürkün "Dramaturgiyada ədəbi əlaqələr" adlı 1987-ci ilin təkrar nəşri olan bu kitabda Azərbaycan-rus ədəbi əlaqələri iki xalqın dramaturgiya ənənələri əsasında tədqiq edilmişdir. Əsasən, ötən əsrin 50-80-ci illər dramaturgiyası təhlil predmeti götürülmüşdür. Kitabda Xəlil Rzanın ilk dəfə əldə edilərək İlyas Əfəndiyevin dramaturgiyası haqqında üç məqaləsi də əlavə olunmuşdur.

*Tədbirin sonunda oxucular şairin şeirlərindən parçalar səsləndirirlər.*

Xəlil Rza Ulutürkün 85 illik yubileyi ilə əlaqədar olaraq, keçirilən maraqlı tədbirlərdən biri də vətənpərvərlik ruhunda ***"Mən yenə dönəcəm Azərbaycana"*** adlı kompozisiyadır.

Tədbirdə, tarix və ədəbiyyat müəllimləri, ədiblər, Qarabağ müharibəsinin iştirakçıları, məktəblilər və ümumilikdə oxucular cəlb olunur. Tədbirdə məktəblilər ədibin vətənə, Qarabağa həsr etdiyi şeirlər əsasında hazırladıqları kompozisiyanı tədbir iştirakçılarına təqdim edirlər. Səhnə mövzuya uyğun dekorasiyalarla bəzədilir. Oxucular milli ordumuzu təmsil edən geyimlərdə, yenilməz üçrəngli bayrağımız və s. səhnəyə çıxırlar. İlk olaraq Azərbaycanın dövlət himni oxunur. Qonaqlar da iştirakçılarla birgə himnimizi səsləndirir. Daha sonra ilk iştirakçı səhnəyə yön alır.

*I iştirakçı: "Mən yenə dönəcəm Azərbaycana"*

Qırın zəncirləri biləklərimdən,
Açın qıfılları diləklərimdən,
Endirin zindanı kürəklərimdən.
Gecələr bürünüb soyuq yorğana,
Yatıram, dalıram Azərbaycana!
Qaldırın bu ağır daşı üstümdən,
Göy göldən su səpin bu yanar cana.
Bəlkə eraların başı üstündən
Mən bir də gələcəm Azərbaycana!
Göy göldən su səpin bu yanar cana...

*II iştirakçı: "Şuşam"*

– Mərd ağlamaz! – deyiblər,
Yoxsa bir cüt qolumu səmalarca açardım,
Üçmıxdan o Qoşa minarənədək
Qucardım səni.
Dolanardım başına... hər qayana, daşına
Göz yaşımı səpərdim.
Kol dibindən qapardım bir Xarı bülbülünü,
Min-min adsız gülünü əyilərdim, öpərdim.
Sənmi ağlayırsan, göz yaşını sil...

*III iştirakçı: "Mən cəbhəyə gedirəm"*

Mən könüllü gedirəm günü bu gün cəbhəyə,
Avtomatı bəri ver.
Qəzəbimdən titrəyir ayağım altında yer.
Avtomatı bəri ver!
– Yollanarmı cəbhəyə 61 yaşlı kişi?
– Bəli, bu gün cəbhədir mənim ən vacib işim.
Azərbaycan adlanır qorum, qoruğum mənim.
Tankdan nə qorxum mənim, topdan nə qorxum mənim?
Bu gün mənim nifrətim yüz-yüz dəliqanlının
Nifrətindən, qeyzindən bəlkə min qat böyükdür.
Qəzəbimin yanında
Ay da, gün də sönükdür...

*IV iştirakçı: "Mən – Azərbaycanam!"*

Dinləyin, dinləyin, mən bir kamanam,
Şərqin sinəsindən qopan fəğanam,
Uzaq əsrlərin dərinliyindən
Sabaha üz qoyan sonsuz karvanam.

Təkcə öz dibinə işıq salmayan,
Hamıya nur verən şamam, şamdanam;
Dinlə, qoca dünya, ey mənim anam:
Min yol öldürülən, yenə ölməyən
Əzəli, əbədi Azərbaycanam!

*Tədbirin sonunda məktəblilər həqiqət carçısı, böyük şair Xəlil Rzanın "Ağır xəbər" adlı şeirini səhnələşdirirlər. İştirakçılar əsərə uyğun geyimlərdə səhnəyə yaxınlaşırlar.*

*I iştirakçı:* Poçtalyon qız nədən sən bu gün belə gəlmisən?
Yanaqların solubdur, kirpikləri nəmlisən.
Əziz bacım, bilirəm, ağır xəbər yamandır,

Neynəyəsən? Günahkar sən deyilsən, zamandır!
Mən özüm də istərdim gülsün bu gün dodağın,
Qapısından yaz girsin o sən girən otağın...
Təkcə sən yox, istərəm dünya poçtalyonları
Sevindirsin hər səhər minləri, milyonları.
İndisə əlin əsir basan zaman zəngi sən,
O addımlar kimindir, Asyadırmı o gələn?
Həyəcanla oxudu teleqramı tez gəlin.

*II iştirakçı:* Qospitaldan yazırlar: "Yubanmayın, tez gəlin!"

*I iştirakçı:* Bu xəbər ananın da sinəsini dağladı.
Kağız düşdü əlindən, o hönkürüb ağladı:

*III iştirakçı:* "Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Namərdin qolu sınsın
Səni vurduğu yerdə!"

*I iştirakçı:* Nəvəsinin boynunu qucdu qan-yaş tökərək,
Düşündü: "Qız xeylağı ora necə gedəcək?"
Mənzil uzaq, yol çətin, hər yan tüstü, hər yan od.
Yollarda şaqqıldayır alov dilli pulemyot!
Lakin gəlin nə susdu, nə tərəddüd eylədi,
Göz yaşını silərək: – "Gedəcəyəm!" – söylədi.

Kitabxanada şairdən bəhs edən ***"Dağları çiynimdə daşıyaram mən..."*** başlıqlı sorğu da keçirilə bilər. Kitabxanaçının oxucular arasında keçirdiyi rəy sorğusu üçün məktəblilər əvvəlcədən Xəlil Rza Ulutürkün həyat və yaradıcılığı, eləcə də kitabları haqqında yaxından tanış olurlar. Kifayət qədər bilgi əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Kitabxanaçı əvvəlcə qonaqlar və iştirakçıları salamladıqdan sonra ədibin ömür yolu və yaradıcılığı barədə qısa və dəyərli məlumatlar verir:

*Kitabxanaçı:* Azərbaycanın azadlığı və istiqlalı yolunda çarpışan, bütün həyatını, yaradıcılığını bu müqəddəs amala həsr

edən Xəlil Rza Ulutürk milli poeziyamızın qranit sütunundan biridir. O, bütün ömrü boyu ictimai-siyasi fəaliyyəti ilə xalqımızın gələcəyinə xidmət etmişdir. Dünyasını vaxtsız dəyişsə də, Xəlil Rza Ulutürk həmişə ruhumuzda yaşayan, bizimlə birlikdə sabaha addımlayan, daha obrazlı desək, bu günün və gələcək dövrlərin şairidir. Şeirlərinin birində özü bu barədə çox sərrast yazıb:

Buludu şimşəklə parçalayacaq,
Zülməti nur ilə boğacağam mən.
Qərbdə ulduz kimi batsam,
Şərqə bax:
Şərqdən günəş
kimi doğacağam mən!
... İtib-batmaq üçün
yaranmamışam,
Dünənəm!
Bu günəm!
Gələcəyəm mən!
Bir gün bu dünyadan
getsəm də, nə qəm,
Dünyaya təzədən gələcəyəm mən!

Xəlil Rza Ulutürk hər şeydən əvvəl, mübariz şair idi. O, XX əsrin ikinci yarısında Azərbaycan poeziyasının möhtəşəm mehrabına gur səsi ilə şimşək kimi çaxdı, onun dalğa-dalğa dağılan əks-sədası ətalət basmış vicdanları oyatdı, atəşinin odu insanların ürəyində mübarizə əzmini alovlandırdı. Bu səbəbdən Xəlil Rza poeziyası yer üzündə yaşayan bütün Azərbaycan türklərini silkələdi. Azadlığı zərrə-zərrə, qram-qram istəməyən, böyük arzularla, ideyalarla yaşayan, yaradan Xəlil Rza Ulutürk bu gün də bizim aramızdadır, onun şeirləri dillər əzbəridir, yenə də ön cərgədə bir məşələ, alova dönüb.

*Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.*

**Suallar:**

1. Xəlil Rza Ulutürkün anadan olduğu tarix və doğulduğu bölgənin adını qeyd edin.

Xəlil Rza Ulutürk 1932-ci il oktyabr ayının 21-də Azərbaycanın Salyan rayonunun Pirəbbə kəndində anadan olmuşdur.

2. Xəlil Rzanın uşaqlar və yeniyetmələr üçün yazdığı hansı kitab və şeirlərini oxumusunuz?

Şairin uşaqlara həsr etdiyi kitablarından "Marallar da duz yeyərmiş" kitabını misal göstərə bilərik. Kitabda yer alan "Hüsn-xətt dəftəri" adlı bir şeirdən sitat göstərmək olar:

"Göylərə bənzər bir cocuk dəftəri.
Bəlkə, şüadır uzanan milləri.
Hüsnünə bax, dəftərimin hüsnünə.
Günmü doğur, dəftərimin üstünə".

3. Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!
Qolumdakı zəncirləri qıram gərək, qıram-qıram!
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi.
İstəyirəm səma kimi, günəş kimi, cahan kimi...

Bu misralar kimə aiddir və bu haqda nə deyə bilərsiniz?

Bu misralar X.R.Ulutürkə aiddir. Ədib 40 illik yaradıcılığı dövründə torpaq günəşə təşnə olan kimi azadlığa can atdı, qolu zəncirlənmiş, ruhu yaralanmış məmmləkətin azadlıq şairi oldu.

4. Xəlil Rza Ulutürk yaradıcılığı dövründə öz əsərlərini müxtəlif imzalar altında yazmışdır. Bunları sadalaya bilərsinizmi?

"Xəlil Xəlilov, "Xəlil Xəlilbəyli", "Xəlil Odsevər", "Xəlil Rza" təxəllüsləri ilə çap etdirmişdi. "Xəlil Rza Ulutürk" təxəllüsü isə şairin keçdiyi mübarizə yolunun, ədəbi-mənəvi axtarışlarının məntiqi nəticəsi idi.

5. Ədib öz şeirlərində insanlara, xüsusən də gənclərə nəsihətli misralarla müraciət etmiş, onları dürüstlüyə, insanlığa, elmə,

əməyə və s. doğru səsləmişdir. Onun bir neçə örnək şeirlərindən sitat gətirə bilərsinizmi?

....

Heç kəs bilməsə də sən yaxşılıq et,
Sənin öz vicdanın – qəlbin biləcək.
Elə bu özü də bir yaxşılıqdır –
Yaman adamların gözünə mil çək.

....

Vaxt – ömür deməkdir, qızıldır, bəli
Vaxtı köhlən kimi yüyənləməli!
Sən ki, söyləyirsən: vaxtı öldürmək,
Vaxt yox, ətalətdir əsl ölməli!

Azərbaycan poeziyasının görkəmli simalarından biri olan xalq şairimiz Xəlil Rza yaradıcılığını oxuculara tanıtmaq və şairin qələmini sevdirmək üçün kitabxanada ***"Təbrizsiz keçən Xəlil ömrü"*** adlı xatirə gecəsi keçirilə bilər. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər bu mövzuya uyğun müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar, oxucular və digər qonaqlar səhnə qarşısında əyləşir. Aparıcı hər kəsi salamladıqdan sonra Xəlil Rza Ulutürkün həyat və yaradıcılığından söhbət açır:

*Kitabxanaçı:* Müasir dövrdə Azərbaycan poeziyasında, bəşəriyyətin gələcəyinə, beynəlxalq hadisələr, sülh və müharibə problemlərinə aid onlarla şeir yazılıb. X.Rzanın siyasi məzmunlu şeirlərini bunlardan fərqləndirən əsas cəhət bu şeirlərin hamısının dünyanın aydın poetik dərkindən, zamanın poetik obraz səviyyəsinə qalxmasından ibarətdir. Özü də bu tipli şeirlərin əksəriyyəti zamanla, dünya ilə dioloq təsiri bağışlayır. Lirik qəhrəman öz hiss-həyəcanları, baş verən hadisələrə fəal münasibəti, cavabdehlik hissinin güclü olması ilə yaddaşa

hopur. Həyatı, gerçəkliyi xüsusi idrak vasitəsinə çevirən poeziyada şairi yaradan xalqın xarakteri, vətən tarixinin konkret inkişaf mərhələsi ifadə olunur, kəskin tarixi təzadlar, ciddi münaqişələr, fəryad qoparan ziddiyyətlər dilə gəlir. Xəlil Rza məhz bu cür şairlərdəndir. Çağdaş Azərbaycan poeziyası meydanında qırx ildən bəri külüng vuran Xəlil Rza Ulutürkün bu müddət ərzində həm çətinliklə, həm də halallıqla qazandığı epitetlər az deyil: Xalq şairi, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor, milli hərakatımızın görkəmli xadimi. Lakin özünün saysız-hesabsız oxucuları üçün o, bu epitetlərin hamısından yüksək dayanır. Çünki yalnız görkəmli şair və alim deyil, hər şeydən öncə parlaq şəxsiyyətdir. Məhz şəxsiyyət bütövlüyü, hər sözünün arxasında özünün dayanması ona ümumxalq məhəbbəti qazandırmışdır. Buna görə onun adını hər yerdə böyük məhəbbətlə, ehtiramla qarşılayır, hər sözünə diqqət yetirirlər.Ən ağır, ən çətin fəth olunan bir zirvədən boylanmaq səadəti hər insana nəsib olmur. Belə ucalıqlardan biri də şəhidlik zirvəsidir. İstiqlaliyyəti uğrunda mübarizə aparan Azərbaycanı körpə ikən beşiyində boğmağa uzanan əlləri kəsmək üçün onu müdafiəyə qalxan və bu müqəddəs amal uğrunda ölümün şəhidlik zirvəsini fəth edən igidlərdən biri də məhz Milli istiqlal şairi Xəlil Rza Ulutürkün oğlu Təbriz Xəlilbəylidir. Qəhrəmanlıq bir neçə anın, saniyənin işi deyil, vətən uğrunda canından keçib ölümsüz olmaqdır. Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canından keçmiş Təbriz Xəlilbəyli məşhur şairimizin evində, ocağında böyümüş, onun yaratdığı poeziya iqlimində kamala yetmişdir... Təbriz 1991-ci ilin oktyabrından 1992-ci ilin yanvar ayının 31-nə kimi Qarabağın Naxçivanik civarında gedən döyüşlərdə qəhrəman hökmüylə döyüşüb vətən yolunda şəhid oldu. Olum ilə ölüm arasındakı treni həyat körpüsünə, ölümsüzlüyə çevirə bildi. 8

oktyabr 1992-ci il tarixli fərmanı ilə Təbriz Xəlil Rza oğlu Xəlilbəyliyə Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.

Sən – oğul, sən – igid, sən – ər oğlu ər,
İftixarla daşı sən öz adını.
Məğribə, məşriqə, cahana göstər,
Adında gizlənmiş istedadını!

Qəhrəman oğul şair atanın dediyi yolla getdi, qanla yazılan Azərbaycan tarixinin bir parçasına çevrildi. Bu amansız və əvəzsiz itkidən ata ürəyi göynəsə də sarsılmadı, alçaq və rəzil düşmən qarşısında özünü sındırmadı. Sarsılmadı, ona görə ki, Təbriz kimi bir qəhrəman oğul Xəlil Rza kimi bir üsyankar şairin ömrü boyu təbliğ etdiyi, yaydığı müqəddəs ideyalar yolunda qurban getmişdi. Sarsılmadı, ona görə ki:

Əyilməzlik Ulutürkün əslindədir, soyundadır,
Palıd kimi qamətində, çinar kimi boyundadır.
Elə bil ki, öz oğlunun yasında yox, toyundadır,
Azadlığın, istiqlalın tarixini yaza-yaza,
Çıxış edir Xəlil Rza!

Xalq şairimiz Xəlil Rza Ulutürk Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin uşaqlığı, yeniyetməlik və gənclik illərini əhatə edən, səngərdaşları ilə birlikdə erməni qəsbkarlarına qarşı amansız mübarizəsini, yurdsevərliyini işıqlandıran silsilə şeirlər üzərində çalışmışdır. Bunlardan biri də "Oğlum Təbrizə" adlı şeirdir:

Qoy sənə doğulan günəş deyim ki,
Nurunla açılan al səhərəm mən.
Yeddi il yol gələn ay mənim ilkim
Gəldiyin yollara gül düzərəm mən.

Özüm də bilmirəm nə işdir bu iş,
Yerdənmi, göydənmi tapmışam səni?

Bəlkə də, səni heç tale verməmiş,
Taleyin əlindən qapmışam səni.

Ən böyük sevincsən, ən müqəddəs qəm,
Məni alovlara atan Təbrizim.
Üzünə baxanda balam deyirəm,
Adını çəkəndə atam – Təbrizim.

Ey bala Təbrizim, gün o gün olsun
Ana Təbrizimə mən azad deyim.
Ustad Şəhriyarla görüşün olsun.
Qovuşsun Təbrizə Şəhrizad deyim...

Xeyirxah, çiçək kimi kövrək, qaya kimi sərt tanıdığım X.Rza ömrü boyu təmənnasız yaşadı, heç kimə minnət qoymadı, mükafat, təltif, fəxri ad ummadı. Aldığı fəxri adlara, mükafatlara o qədər də sevinməyən Xəlil Rza, şübhəsiz ki, "İstiqlal" ordeninə layiq görüldüyünü bilsəydi, çox sevinərdi. Ona görə sevinərdi ki, bu söz Xəlil Rzanın əqidəsindən gələn, inamından doğan həyat eşqindən güc alan bir sözdür. Bu sözün uğrunda o, ömrü boyu döyüldü, döyülə-döyülə bərkidi, əzilə-əzilə mətinləşdi, özü də, övladı da, yaradıcılığı da poeziyamızda, müasir Azərbaycan ədəbiyyatında qəhrəmanlıq obrazına çevrildi:

O qarlı dağlara diqqətlə bax bir,
Bəlkə analardı, ağarıb başı.
Analar dünyaya oğullar verir,
Dünya analara acı göz yaşı.

Xəlil Rza bu gün canından çox sevdiyi Azərbaycan torpağının qucağında, Fəxri xiyabanda uyuyur. Bizimsə qəlbimizdən göynəkli, sızıltılı duyğular keçir. Axı Xəlil Rza Ulutürk kimi oğulları hər ana doğmur, hər ana yetirmir...Tez getdi Xəlil Rza, tez getdi. "Getdi" sözünü cismanı işlədirik onun

üçün. O, heç yana getməyib əslində. Qəlbimizdə, ruhumuzdadır, döyüşün, mübarizənin ön cərgəsindədir, səngərdə, vuruşdadır. Biz sabah qələbə çalıb torpağımızı işğalçılardan azad edəndə Xəlil Rza şeiri dilimizdə duaya, başımızın üstündə bayrağa çevriləcək!..

*Tədbirin sonunda iştirakçılar şairin hər iki Təbrizə həsr etdiyi şeirlərdən parçalar söyləyirlər.*

Xəlil Rza Ulutürk irsini oxuculara çatdırmaq məqsədi ilə kitabxanada ***"Xəlil Rza Ulutürkün milli poeziyamızın inkişafında, xalqımızın milli-bəşəri dəyərlərinin və doğma dilimizin qorunmasında rolu"*** adlı *konfrans* keçirilə bilər. Tədbirdə oxucularla yanaşı, ədiblər, yazıçılar, tədqiqatçılar, müəllimlər, tələbələr və s. iştirak edə bilərlər. Bunun üçün kitabxanaçı oxucuları kitabxanaya cəlb edərək onları böyük ədibin yaradıcılığı ilə tanış edir. Təyin olunmuş vaxtda oxucular tədbirdə iştirak edirlər. Tədbiri açıq elan edən kitabxanaçı hər kəsi salamladıqdan sonra böyük azadlıq carçısı Ulutürkün keşməkeşli ömür yolundan və coşğun yaradıcılığından söhbət açır. Kitabxanaçının çıxışından sonra qonaqlar Xəlil Rza yaradıcılığından və onunla uzun illər davam edən dostluq münasibətlərindən danışaraq, xatirələrini bölüşə, şairin şeirlərindən parçalar söyləyə bilərlər. Konfransın sonunda iştirakçılar şəhərimizin yaraşıqlı guşələrinin birində ucaldılmış "Ata-oğul" abidəsinin önünə gələrək Xəlil Rza Ulutürkün və onun oğlu, Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin xatirəsini yad edə bilərlər.

Böyük şair Xəlil Rzanın yubileyi ilə əlaqədar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də ***"Pərvanəyə azadlıq"*** adlı kitab müzakirəsidir.

Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər, həmçinin də ədəbi-bədii gecə keçirilir. Unudulmaz şəxsiyyət Xəlil Rza

Ulutürkün xatirəsinə həsr olunmuş ***“Türkün dastanını yazan dahi”*** adlı ədəbi-bədii gecəyə Azərbaycanın gorkəmli ədibləri, alim və tədqiqatçılar, sənət-söz adamları, jurnalistlər, müəllimlər, oxucular, ali məktəb tələbələri, məktəblilər dəvət olunur. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqları ilk olaraq “Xəlil Rza Ulutürk haqqında hazırlanmış veriliş”in slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürünü bildirirlər.
*I aparıcı:* Xəlil Rza Ulutürk XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas alim, ictimai-siyasi xadim, milli-demokratik hərakatımızın mücahidi, Azərbaycan poeziyasında görkəmli ədəbi simadır. Xəlil Rza Ulutürk həm də ədəbiyyatımızda istiqlalçılıq, türkçülük, vətənçilik, azərbaycançılıq məfkurəsinin davamçısıdır. Onun poeziyası milli ideallarla aşılanmış, xalq məfkurəsi və taleyini daha canlı əks etdirmişdir. XX əsrin 50-80-ci illər əsərlərində şairin milli məfkurəsinin doğuşu və inkişafını aydın müşahidə edirik. İstiqlal məfkurəsi Xəlil Rza Ulutürk özünü-dərkinin mənbələrindən biridir. “Afrikanın səsi”, “ Yetkinləş, Xəlil ” və başqa əsərlərində Xəlil Rzanın həm milli, həm də bəşəri fikir və düşüncələri, habelə Quzeylə Güneyin birləşdirilməsi – bütöv Azərbaycan ideyası əksini tapıb. “Quzeylə Güneyi birləşdirməyə fəxr elə, ey Vətən, Şəhriyar gəlir”, – deyən şair ayrılıq sədlərinin lay-lay söküldüyündən sevinir, yurdunun yarısının ona dar gəldiyindən darılır, kədərlənir.
*II aparıcı:* Xəlil Rza Ulutürk bu dünyanı sevməyə gəlmişdi. Çiçəklərin, otların, qarışqaların, küləklərin, dənizlərin, yerin-göyün, insanların, dünyanın bütün gözəlliklərinin pərvanəsi

olan bu qeyri-adi insandakı ilahi gücə, qüdrətə, yaşamaq, yaratmaq yanğısına, həyat eşqinə heyrət etməyə bilmirsən. Özünün dediyi kimi "ən xırda işi belə özü görən, yan-yana beş-altı ömür sürən" Xəlil, təkbaşına imperiya ilə döyüşürdü. Elə bil bahar yağışıydı. Keçib getdiyi yerdən qüdrətli oğullar boy atırdı. Bütöv bir nəsil onun döyüşkən şeirləri ilə nəfəs alırdı, qanadlanırdı, ucalırdı.

... Mən istərəm səsindən ildırımlar güc alsın!
Yalnız daş minarən yox, millətlər sırasında
Sənin başın ucalsın!
Təkcə əzan səsi yox, döyüş marşın ucalsın!
Fəxr edim ki, o tayda həm güclüyəm, həm mətin,
Mən də bir övladıyam  üzüağ bir millətin!

Səsin gəlsin, Təbrizim, öz avazın, öz səsin!
Yandırsın daş qəfəsi, söksün beton məhbəsi.
Haqq, ədalət uğrunda alov tutan nəfəsin!
Bərkdən danış əzizim, səsinin möhtacıyam.
Yurdu vahid görməyin, yurdu xoşbəxt görməyin
Təşnəsiyəm, acıyam!

*I aparıcı:* Şairin vətəninə, doğmalarına, dostlarına sevgisi bütöv idi, bölünməz idi. Heç kəsə bənzəmirdi. Xəlil Rzanın sevgi şeirlərində də mübariz ruh hakim idi. O, həyatda olduğu kimi sevgidə də xırdalığın, cılız, sısqa hisslərin düşməni idi. Sevgidə də böyük amallar, ideallar axtarırdı. Xəlil Rza Ulutürk dünyanın, bütöv oğlu idi. Türk dünyasının böyük oğlu Xəlil ömürlərdə yaşayır, mübarizə aparır. Mübarizədə keçən ömürsə ədəbiyyətə qovuşan ömürdü... Şair tikanlı məftillərlə qolları sarınmş Azərbaycan faciəsini, dərdini dünyanın kar olmuş qulaqlarına deyirdi. Dünya özünü karlığa vursa da, Xəlil Rzanı eşidirdi, bu ipə-sapa yatmayan qasırğa, tufan oğlu cilovlamağa çalışırdı. Xəlil  Rza susmurdu, sussaydı Xəlil  Rza olmazdı... Poeziya heç

vaxt əxlaqa, insan mənəviyyatına xidmətini unuda bilməz. İnsanı mənəvi zənginləşdirmək, onu ulu məqsədlərə hazırlamaq şeirin əbədi vəzifəsidir. Bunun üçün söz sənəti müxtəlif vasitələrdən istifadə edir, biri də həqiqətləri poetik hikmətlər, aforizmlər biçimində çatdırmaqdır. Bu klassik şeirin üsuludur, indi də gərəkli və əlverişlidir. Bədii fikri yığcam söyləmək hər insana nəsib olmur. Bunun üçün yüksək sənətkarlıq məharəti lazımdır. Bu fikirlər məhz Xəlil Rzaya xas idi. Böyük söz ustadı, qüdrətli şair Xəlil Rza Ulutürk  ilk olaraq azadlıq aşiqi idi. Müasir Azərbaycan poeziyasının nümayəndələri sırasında Xəlil Rza Ulutürkə  paklıq və mübarizliklə tən gələ biləcək ikinci bir şair tapmaq bəlkə də çətindir. Çoxları Xəlil Rza Ulutürkdən yurdsevərliyi, əyilməzliyi, vətəndaşlıq yanğısını Prometey coşğunluğunu qüdrət və hünər öyrəndi.
*II aparıcı:* Xəlil Rza həyatı boyu odla oynadı. Odlu çıxışları ətrafı, odlu misraları ürəkləri yandırdı. Odla oynaya-oynaya sonunda Səməndər quşu tək özünü odda yandıran Xəlil Rza Ulutürk Azərbaycan ədəbiyyatında haqq səsi, azadlıq şairi kimi əbədiləşdi. Xəlil Rzanın yaradıcılıq irsi yalnız şeirlərinin yazıldığı illər üçün əhəmiyyətli olmayıb, uzun müddət təsir göstərmək iqtidarına malik yaşarı bir xəzinədir. Onun əsərlərində qaldırılan və ardıcıllıqla izlənən, araşdırılan ədəbi, siyasi, ictimai problemlərin, Azərbaycan xalqı üçün, bir sıra hallarda bütün türk  xalqları və Şərq üçün taleyüklü məsələlərin, demək olar ki, heç biri bu gün öz aktuallığını itirməmişdir. Bütün bu problemlərin araşdırılmasında şairin istifadə etdiyi ədəbi priyomlar, bu zəmində şeirimizə gətirdiyi yeniliklər, təzə mövzuların təravətli kompozisiya həlli, dilinin zənginliyi, üslubunun əlvanlığı, təsvir və ifadə vasitələrinin  orijinallığı, həqiqətən, xüsusi tədqiqata möhtacdır.
*I aparıcı:* Onun vəfatı Azərbaycan ədəbiyyatının keçən əsrdə verdiyi əvəzsiz itkilərdən biri oldu. Ümummilli liderimiz cənab

Heydər Əliyev şairlə vida mərasimində demişdir: "Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgəsində getmiş, bu mübarizəyə qalxan gənclərimizə ... örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür... Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm. Onu yüksək qiymətləndirmişəm... Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır. Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır".
*II aparıcı:* Böyük öndər tamamilə haqlı idi. Biz uzaqgörənliklə deyilmiş bu kəlamın işığında indi bir daha aydınlığı ilə görürük ki, şair Xəlil Rzanın yeri Azərbaycan ədəbiyyatında, tərcüməçi Xəlil Rzanın yeri qarşılıqlı ədəbi əlaqələrimizdə, alim Xəlil Rzanın yeri ədəbiyyatşünaslıq elmimizdə, təkrarsız gündəliklər, məqalə və müsahiblər müəllifi Xəlil Rzanın yeri publikamızda, alovlu vətənpərvər, qayğıkeş vətəndaş Xəlil Rzanın yeri isə yeni dövrün Azərbaycan tarixində əbədidir.

Bəzən elə başa düşürlər ki, vətəndaş şairlik vətən üstünə qanadlı, coşqun şüarvari şeirlər yazmaqdan ibarətdir. Yox, ağ kağızı qaraldan Şair sözü ildırımdır. Sözü ildırım olan, şimşək olan şair ölümüylə belə ölümsüzləşdi, əbədiyaşar oldu. Xalqın azadlığı uğrunda ölüm-dirim döyüşlərində sözü və əməlləri ilə çarpışaraq qəhrəmancasına şəhid olmuş Xəlil Rza Ulutürkün ruhuna eşq olsun. Qəbri nurla dolsun! – deyirik...

Xəlil Rza Ulutürk, mərd adına eşq olsun.
Qeyrətinə, əzminə, inadına eşq olsun!

Ayın, Günün varisi, Ulutürkə eşq olsun!
Xalqın Baş Mübarizi Ulutürkə eşq olsun!
Yaşarım Xəlil təkin, ölərəm Xəlil təkin.
Canım – atəş qaynağı, cismim – zirehli təmkin.
Məğrur, cəsur yaşayan kişilərə eşq olsun!
Xəlil Rza Ulutürk, bu hünərə eşq olsun!

## Ədəbiyyat siyahısı

***Əsərləri***
***Kitablar***

***Latın qrafikası ilə***


Seçilmiş əsərləri: 2 clddə. I cild. - Bakı: Şərq-Qərb, 2005. - 296 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Seçilmiş əsərləri: 2 cilddə. II cild. - Bakı: Şərq-Qərb, 2005. - 248 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Seçilmiş əsərləri: şeirlər, poema. - Bakı: Gənclik, 2001. - 621 s.

Bir odlu sözləri, bir də xoş səsi. - Bakı: Çinar-çap, 2007. - 301 s.

Gəl, ey səhər: məqalələr toplusu. - Bakı: Nağıl evi, 2004. - 420 s.

Turan çələngi: şeir. - Bakı: QAPP-POLİQRAF Korporasiyası, 2005. - 873 s.

Türkün dastanı: şeirlər, poemalar. - Bakı: Gənclik, 2000. - 750 s.


***Əsərləri mətbuatda***


Aman, dostlar!: şeir // Savalan. - 2007. - 23-25 yanvar. - S.3.

Ana dilim ; Mən Azərbaycanam! ; Dədə Heydər - Atatürk ; Yaralı xəritəmiz və b.: şeirlər // Yeni Azərbaycan. - 2012. - 20 oktyabr. - № 194. - S. 7.

Araxçın // Göyərçin. - 2008. - № 2. - S. 14.

Arxeoloq // Savalan. - 2013. - 8-11 fevral. - № 9. - S. 3.

Ayxan bəyin türküsü: şeir // Ədəbiyyat qəzeti. - 2008. - 18 yanvar. - S. 6.

Azadlıq gülüstanı: şeir // Azərbaycan. - 2010. - 17 yanvar. - № 12. - S. 5.

Azərbaycan: şeir // Savalan. - 2009. - 9-12 oktyabr. - № 42. - S. 5.

Birinci qar: şeir // Tumurcuq. - 2007. - №1 yanvar. - S.9.

Böyüklük heykəlidir Dədə Heydər – Atatürk! // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 5. - S. 29.

Dədə Heydər – Atatürk: şeir // Yeni Azərbaycan. - 2016. - 10 dekabr. - № 228. - S. 5.

Düşüncələr. Ovcumun aynasında: Şeirlər // Vəfa. - 2006. - №3-4. - S.9.

Gəncənin çinarları: şeir // Savalan. - 2010. - 6-8 aprel. - № 19. - S. 2.

Gülzara çevirək: şeir // Göy qurşağı. - 2010. - № 6. - S. 2-3.

Gündəlikdən səhifələr // Azərbaycan. - 2006. - №1 . - S.158-164.
Gözmuncuğu: şeir // Savalan. - 2017. - 23-31 may. - № 23. - S. 3.

Heç kəsə açmaram: şeir // Savalan. - 2013. - 5-7 noyabr. - № 82. - S. 3.

Həyat düşüncələri // Savalan. - 2008. - 14-20 oktyabr. - S. 3.

Xəzərin mirvarisi: şeir // Savalan. - 2011. - 24-31 may. - № 34/35. - S. 2.

Kamranın səhvi: şeir // Savalan. - 2011. - 8-10 fevral. - № 7. - S. 5.

Qara cöngə ; Sağıcıdır mənim nənəm // Bu yurdu kim sevməz ki... : Məktəblilər üçün. Tumurcuq yayınları №12. - Bakı : 2011. - S. 9.

Laylam mənim, nəvəm mənim ; Xiyabani yurdunda ; Ata borcu : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 12.

Maestro: Maestro Niyazi haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 11 avqust. - S.1,2,5.

Mən Azərbaycanam: şeir // Füyuzat. - 2016. - № 4. - S. 30-31.

Mən yenə dönərəm Azərbaycana ; Azadlıq: şeirlər // Ədəbiyyat qəzeti. - 2010. - 22 oktyabr. - № 41. - S. 6.

Mənlik: şeir // Savalan. - 2014. - 16-18 sentyabr. - № 69. - S. 3.

Müstəqillik: şeir // Savalan. - 2012. - 24-30 iyul. - № 53/54. - S. 2.

Səadətim; Balalarım : şeirlər // Ədəbiyyat qəzeti. - 2009. - 7 avqust. - № 30. - S. 6.

Sənin göz yaşların // Savalan. - 2012. - 10-16 iyul. - № 49/50. - S. 1.

Sənin göz yaşların; Hardasan, ey mənə canımdan əziz... : Firəngiz xanıma həsr olunmuş şeirlər // Ədəbiyyat qəzeti. - 2012. - 9 noyabr. - № 41. - S. 1.

Sorğular : şeir // Savalan. - 2008. - 23-25 sentyabr. - S. 2.

Soruş peşmanammı? : şeir // Savalan. - 2011. - 21-24 oktyabr. - № 52. - S. 3.

Vurğunlu Moskva günləri: Səməd Vurğun // Ulduz. - 2006. - № 3. - 41-45.

Yaşa məni ; Ovcumda: şeirlər // Savalan. - 2016. - 17-23 may. - № 28. - S. 2.

***Haqqında kitablarda***

**Aydın xan** "Düyünlənmiş yumruq": zamanın nəbzinə uyğun yeni mənzum dram: Mərkəz Qacarın Xəlil Rzaya həsr olunmuş mənzum pyesi haqqında // Kulturoloji alternativ düşüncələr. - Bakı: Elm, 2006. - S. 168-176.

**Əsgərli Ə.** Xəlil Rza Ulutürkün poetikası. - Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Aspoliqraf, 2012. - 496 s.

**Hacızadə N.** Yada düşdü: xatirələr, məqalələr, istəklər . - Bakı: Araz, 2008. - 652 s.

**Nəbiyev B.** İstiqlal Şairi: Xəlil Rza Ulutürkün həyatı, mübarizəsi və yaradıcılıq irsi. - Bakı: Elm, 2001. - 348 s.

**Nəbiyev B.** Əbədiyyətə qovuşan sənətkar: Xəlil Rza Ulutürk haqqında // Xəzan vurmasın. - Bakı: Elm, 2006. - S. 183-209.

**Pənah G. V.** Sənətkar və poeziya: monoqrafiya. - Bakı: Sabah, 2010. - 321 s.

**Sadıq F.** Xəlil Rza kimdir? // Taleyin acığına. - Bakı: Çinar-Çap, 2003. - S. 263-264.

**Ulutürk F.** Xəlil Rza kədərimlə qol-boyun. - Bakı: Qorqud, 2003. - 252 s.

**Ulutürk F.** Ulutürkün yolu ilə Birinci kitab: Xəlil Rza Ulutürk 80. - Bakı: Çənlibel NPM, 2009. - 256 s.

**Xəlil Rza Ulutürk** ( 1932-1944) // Müasir Azərbaycan ədəbiyyatı: dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2007. – C.2. - S. 458-465.

**Yaqub Z.** Azadlıq aşiqi: Xəlil Rza haqqında // Millətdə, dövlətdə, sənətdə. - Bakı: Nağıl evi, 2009. - S. 124-129. - Məqalə ilk dəfə "Azərbaycan" qəzetinin 21 aprel 1995-ci il tarixli sayında dərc edilmişdir.

**Yaqub Z.** Xəlil Rza haqqında ürək sözü // Millətdə, dövlətdə, sənətdə. - Bakı: Nağıl evi, 2009. - S. 129-133.

*Haqqında mətbuatda*

**Abbaslı T.** Bir od-alov oğul: sözü atəş, gözü şimşək, mahiyyətcə ulu, fəaliyyətcə olu Türk – Xəlil Rza Ulutürk! // Mədəniyyət. - 2015. - 21 oktyabr. - № 81. - S. 13.

**Əsgərli Ə.** Xəlil Rza və Türkiyə ədəbiyyatı // Ədəbiyyat qəzeti. - 2013. - 20 sentyabr. - № 35. - S. 7.

**Əsgərli Ə.** Şair – ictimai xadim: Xəlil Rza Ulutürkü oxuyarkən // Ədəbiyyat qəzeti. - 2013. - 14 iyun. - № 22. - S. 6.

**Hacızadə N.** Şair, səndən yazmaq istəyirəm: Xalq şairi Xəlil Rza ilə görüşlərim // Yada düşdü. - 2013. - № 1. - S. 24-34.

**Hüseynoğlu S.** Ölümündən doğulan şairin kitabları: Xəlil Rza Ulutürk // Ədəbiyyat qəzeti. - 2015. - 25 aprel. - № 24/25. - S. 18.

**Xəlil Rza Ulutürkün** gündəlikləri // Yada düşdü. - 2017. –№ Yanvar-fevral-mart. - S. 22-26.

**Xəlilzadə F.** Vəfa xəzinəsi: şair Xəlil Rza Ulutürk və xanımı Firəngiz haqqında // Kaspi. - 2014. - № 4.

**Qurbanqızı Z.** Azadlıq mücahidinin vəfalı xanımı // Respublika. - 2013. - 25 avqust. - № 184. - S. 3.

**Muradoğlu N.** Xəlil Rza Ulutürkün poeziyasında vətəndaşlıq düşüncəsi // Kaspi. - 2016. - 10 dekabr. - № 204. - S. 24.

**Rüstəmova N.** "Canım, ey Azadlıq!" : Xəlil Rza haqqında həyat yoldaşı Firəngiz xanım Ulutürk danışır // El. - 2011. - № 10. - S. 30 -41.

**Səfərli A.** İstiqlal şairi – Xəlil Rza Ulutürk // Kaspi. - 2013. - 13 mart. - № 46. - S. 13.

**Süleymanzadə M.** Yazıçılar haqqında xatirələr // Azərbaycan : jurnal. - 2016. - № 9. - S. 165-169.

**Ulutürk F.** "Vəfa xəzinəsi – Firəngiz" : [Xalq şairi Xəlil Rza Ulutürkün ömür-gün yoldaşı Firəngiz xanımla söhbət / müsahibəni apardı Ə. Bayramov] // Xalq qəzeti. - 2015. - 1 fevral. - № 24. - S. 6.

**Ulutürk F.** Xəlil Rza Ulutürklə bağlı xatirələr : istiqlal şairimiz Xəlil Rza Ulutürkün həyat yoldaşı Firəngiz Ulutürk ilə müsahibə // Azərbaycan Müəllimi. - 2015. - 16 may. - № 17. - S. 8.

**Vahid M.** Yaşadığı kimi yazan şair : oktyabrın 21-i Xəlil Rza Ulutürkün doğum günüdür // Ədəbiyyat qəzeti. - 2015. - 17 oktyabr. - № 54. - S. 10.

**Yaqub Z.** Məndə yaşayan Xəlil Rza // Ədəbiyyat qəzeti. - 2015. - 7 mart. - № 14/15. - S. 18-19.

**Zeynalova R.** Xəlil Rza Ulutürkün "Oğul həsrəti" şeirinin tədrisi zamanı şagirdlərə vətənpərvərlik ideyasının təbliği // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2015. - № 3. - S. 18-20.

**Zərrabqızı X.** Kəskin süjetli mövzular, koloritli epik qəhrəmanlar : Seyran Səxavət - 70 // Mədəniyyət. - 2016. - 18 mart. - № 22. - S. 12.

## Xəlil Rzaya həsr edilmiş əsərlər

**Dəmirçi Z.** Xəlil Rzaya : şeir // Qayalı. - Bakı : UniPrint, 2008. - S. 37.

**Hidayət.** Xəlil Rza : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 156-158.

**Qacar M.** Düyünlənmiş yumruq : Dram: 2 hissəli 11 şəkilli. - Bakı : Ulduz, 2004. - 98 s.

**Rüstəmxanlı S.** Xəlil Rzaya mərsiyə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 218-219.

**Yaqub Z.** Xəlil Rzaya ağı : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.II. - 2006. - SA. 162-166.

**Yaqub Z.** Lefortovo zindanı : şair Xəlil Rzaya həsr olunub // Mən öz dastanımı yazıb gəlmişəm. - B. : Elm və təhsil, 2009. - S. 242-250.

**Həsənzadə N. Ə.**Xəlilin göz yaşı : Xəlil Rza Ulutürkə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 64-65.

**Haqq pərvanəsi – Xəlil Rza**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 40
Çapa imzalanmışdır: 02.10.2017
Tirajı:100
Pulsuz